*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 noyabr 2017-ci il № 82 (2199) Qiymәti 25 qəpik


## Prezident İlham Əliyev:
## Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihədir

Bakı-Tbilisi-Qars dəmir yolu tarixi layihədir, strateji əhəmiyyətli layihədir. Bu yolun uzunluğu təxminən 850 kilometrdir, onun da 504 kilometri Azərbaycan ərazisindən keçir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimindəki çıxışında səsləndirib.

Dövlətimizin başçısı qeyd edib ki, bu dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yoldur. Bu yol vasitəsilə birinci mərhələdə 5 milyon, sonrakı mərhələdə 17 milyon, ondan sonra isə daha böyük həcmdə yüklərin daşınması nəzərdə tutulur. Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. Bu yolun fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi ilə yanaşı, qarşılıqlı sərmayə qoyuluşu da artacaq, bu yoldan istifadə edən bütün ölkələr arasında əməkdaşlıq dərinləşəcək.

Bakı-Tbilisi-Qars dəmir yolunun sabitliyə və təhlükəsizliyə xidmət göstərəcəyini vurğulayan Prezident İlham Əliyev deyib: "Bu yolun istifadəsi zamanı əminəm ki, turizmin inkişafı da geniş vüsət alacaq, turistlərin sayı artacaq və təbii ki, Bakı-Tbilisi-Qars dəmir yolunun uğurlu fəaliyyəti ölkələrimizin geosiyasi əhəmiyyətini artıracaq və bizim üçün əlavə imkanlar yaradacaqdır. Biznesin inkişafı üçün, qarşılıqlı faydalı əməkdaşlıq üçün Bakı-Tbilisi-Qars dəmir yolunun çox böyük əhəmiyyəti vardır".

## Türkiyə Prezidenti:
## Dağlıq Qarabağ məsələsi Azərbaycanın olduğu kimi, bizim də qanayan yaramızdır

Dağlıq Qarabağ məsələsi Azərbaycanın olduğu kimi, bizim də qanayan yaramızdır. Ermənistan Azərbaycan ərazilərinin işğalına son qoymayana qədər, əfsuslar olsun ki, bu məsələ həll oluna bilməyəcək. Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında işğala dərhal son qoyulmalıdır.

Bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan AZƏRTAC, APA və TREND agentliklərinə müsahibəsində söyləyib.

"Ermənistanın işğalçılıq siyasəti ilə yanaşı, son dövrlərdə mülki əhalini hədəf seçən təxribatlarını da lənətləyirik. Belə hərəkətlər regionda sülhün təmin olunmasına heç bir halda kömək edə bilməz", - deyə dövlət başçısı vurğulayıb.

Prezident Rəcəb Tayyib Ərdoğan bildirib: "Minsk qrupu başda olmaqla beynəlxalq ictimaiyyətin Dağlıq Qarabağ probleminin həlli istiqamətində daha fəal işləməli olduğu qənaətindəyik. Biz hər məsələdə olduğu kimi, bu məsələdə də, Azərbaycanın bu haqq işində də onun yanında olmağa davam edəcəyik".

*Ön xətdən reportaj*

## Nurlu bir sabahda görüşəcəyik



Bu vaxta kimi ezamiyyətlərim yaz-yay aylarına, təbiətin oyandığı, qanın damarlarda coşduğu vaxtlara təsadüf edirdi. Həmin çağlarda təbiətin gözəlliyini seyr etməkdən doymaq olmurdu. Onda elə zənn edirdim ki, bölgələrimizin yalnız yazı, yayı gözəldir. Bir-birinə bənzəyən yaşıl təpələr, göz işlədikcə uzanıb gedən çöllər insana sanki təzə nəfəs gətirirdi. Amma bu dəfəki gəlişim payız fəslindədir. Ətrafa nəzər yetirdikcə hər tərəfi gözəlliklər içində gülümsəyən görürəm. Sən demə, təbiətin payızı da gözəlmiş.

Füsunkar mənzərələrdən zövq alan ürəyim xoş notlar üstündə köklənmişdi. Elə bu ovqatla da torpaqlarımızı düşməndən qoruyan Vətən övladlarının görüşünə yollandıq.

**(Ardı 2-ci səhifədə)**

## "Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə yeni Avrasiya körpüsünün təməli qoyulur"

Bakı-Tbilisi-Qars dəmir yolu xətti təkcə bizim regionda deyil, onun ətrafında da mövcud iqtisadi şəraiti dəyişəcək və inkişafın yeni mərhələsini yaradacaq. Əminliklə demək olar ki, bu gün yeni Avrasiya körpüsünün təməli qoyulur. Bu, təkcə bizim iqtisadiyyatlarımızı deyil, həmçinin vətəndaşlarımızı bir-birinə bağlayacaq, onların rifah halını daha da yaxşılaşdıracaq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Gürcüstanın Baş naziri Giorgi Kvirikaşvili Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı mərasimində söyləyib.

Baş nazir vurğulayıb ki, yeni dəmir yolu marşrutunun tam işə düşməsi ölkələrimizin tranzit və logistik potensialından daha səmərəli istifadə etməyə imkan yaradacaq, regionun nəqliyyat və ticari statusunu möhkəmləndirəcək. Bakı-Tbilisi-Qars dəmir yolu yük daşımalarından başqa ildə 1 milyon sərnişinə xidmət göstərəcək. Yeni dəmir yolunun istismarı müasir infrastrukturun inkişafına da töhfə verəcək, yeni bazarlar mənimsənilənəcək, turizm və emal sektoru inkişaf edəcək, yeni iş yerləri yaradılacaq. Bu, bizim regionumuzun iqtisadi inkişafı üçün mühüm amildir.

"Bu gün biz nəinki ticari potensialımızla, eyni zamanda, dünyanın ən iri bazarlarına çıxışımızla ölkələrimizi bir-birinə bağlayırıq. Həm dünya bazarlarının məhsulları, həm öz məhsullarımız yeni kommunikasiyanın yaradılmasını tələb edir", - deyə Giorgi Kvirikaşvili qeyd edib.

# Nurlu bir sabahda görüşəcəyik

(Əvvəli 1-ci səhifədə)



Həmişəki kimi bizi hərbi hissədə növbətçi qarşıladı və gəlişimizin məqsədi barədə komandir müavininə məruzə etdi. Zabit Ədalət Hacıyevlə qısa söhbətimiz əsnasında gəlişimizin əsas məqsədinin ön xəttə getmək və Vətənimizin keşiyində dayanan döyüşçülərlə görüşmək olduğunu bildirdik. Zabit Seymur Abıyevlə ön xəttə yola düşdük.

Hava çox bürkülü idi. Nə külək, nə də meh əsirdi. Günəş buludlar arasında bəzən gizlənir, kiçik bir təbəssüm və xəlvəti baxışlarla özünü tamamilə unutdurmurdu. Başqa obalara köçməyə macal tapmamış quşlar da tüklərini qabardaraq hələ də yaşıl yarpaqları olan ağaclarda məskən salmışdı. Keçdiyimiz yollar tozlu, çınqıllı idi. Maşını müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Əli İbrahimov idarə edirdi. Yolları yaxşı tanıdığından maşını məharətlə idarə etməyinə söz ola bilməzdi. Hansı istiqamətə gedəcəyimizi yaxşı bilirdi. Hamısı bir-birinə oxşayan çınqıllı yolları, cığırları çox yaxşı tanıyırdı.

Torpaq yollar arxada qaldıqca, ön mövqeyə yaxınlaşırıq. Üzü dağlara tərəf getdikcə hava soyuyurdu. Artıq barıt qoxulu səngərlərə gəlib çatırıq. Təpələrin arasında dərin, səliqəli səngərlər qazılıb. Dünyaya göz açdıqları yurda qəlbən bağlı olan zabit və əsgərlərimizin xidməti burada keçir. Onlar buradan düşməni müşahidə altında saxlayır, qarşılarında dayanan mühüm tapşırıqları yerinə yetirirlər.

Mövqedə leytenant Roman Vəliyevlə görüşürük. Düşmənlə təmas xəttində nisbi sakitliyin davam etdiyini bildirən zabitlə səngərə daxil oluruq. Söhbət zamanı öyrənirəm ki, gənc zabitimiz artıq 2 ildir xidmət edir. Elə ilk xidmət yeri də buradan - səngərdən başlayıb.

Zabitlə söhbətimiz, ancaq əsgərlər barəsində, onların hazırkı şəraiti, qayğıları haqqındadır. Leytenant bildirir ki, bu gün ön xətdə xidmət edən şəxsi heyətin bütün qayğıları ordu rəhbərliyinin diqqət mərkəzindədir.

- Əsgərlərin gündəlik sosial-məişət şəraitinə, keyfiyyətli qidalanmasına ciddi önəm verilir, - zabit deyir. - Onların xidmətinin düzgün təşkil olunması üçün hər bir şərait yaradılıb. Şəxsi heyətin hər bir problemi ilə yaxından maraqlanır, onlardan köməyimizi əsirgəmirik. Əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığı da yüksək səviyyədədir. Hər kəs Vətənin müdafiəsində dayanmağın mənəvi məsuliyyətini aydın dərk edir və bu vəzifəni yerinə yetirməkdən qürur duyur.

Döyüş növbətçiliyində dayanan əsgərlərimizlə də söhbət edirik. Müşahidə məntəqələrinin birində dayanan əsgər Qurbanəli Əliyev Vətən keşiyində dayanmağın şərəfli və qürurverici olduğunu qeyd etdi. "Düşmənlə üzbəüz xidmət etmək şərəflidir. Biz komandirlərin verdiyi tapşırıqları vaxtında və düzgün yerinə yetirməyə çalışırıq. Düşmən atəşkəs rejimini pozduqda komandirlərimizin əmri ilə qarşı tərəfi dərhal susdururuq və onlara layiqli cavab veririk. Biz düşməndən qorxmuruq. Vətən uğrunda canını verməyə hazırsansa, Vətəni canından çox sevirsənsə, qorxmayacaqsan. Bizlər də Vətənimizi, üstündə boy atdığımız yurdu çox sevirik".

Öyrənirəm ki, əsgərin xidmətinin xeyli hissəsi geridə qalıb. Bu günə qədər o yadda qalan bir xidmət yolu keçib.

Səngər boyu leytenant Roman Vəliyev bir-bir əsgərlərlə bizi tanış edir, onların xidmətindən razılıqla danışır. Xidmətləri ilə qürur duyulan əsgərlərin məğrur baxışları, cəsur olmaqları diqqətimdən yayınmır. Onlardan birini - əsgər Pencalı Xəqaniyevi tanıyaq. Hacıqabul rayonundan xidmətə çağırılan Pencalı 13 aydır atıcı vəzifəsində xidmət edir. "Vətənimizi sevək. Elə sevək ki, onun hər qarışı uğrunda canımızdan keçməyə hazır olaq. Axı Vətən sevgisi imandan gəlir. Bu o deməkdir ki, doğulub boya-başa çatdığın torpağa sədaqət, bağlılıq insanın ruhundan gəlir. Vətəni ruhumuzla, bütün mənliyimizlə sevməliyik", - əsgər deyir.



Diqqətimi çəkən əsgərlərdən biri də İlkin Qədimov oldu. Bakının Qaradağ rayonundan hərbi xidmətə çağırılıb və 10 aydır xidmətdədir. İlkinin vəzifəsi həm çətin, həm də məsuliyyətlidir. Sanitar-atıcı olan əsgər xidmət müddətində heç bir çətinliklə üzləşmədiyini söylədi.

- Biz qətiyyən düşməndən çəkinmirik. Hər an torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanıb, Ali Baş Komandanımızın döyüş əmrini gözləyirik. Valideynlərimə, dostlarıma söz vermişəm ki, Vətənə layiqli övlad kimi xidmət edəcəyəm. Biz düşmən gülləsiylə ölməyə yox, torpaqlarımızı işğal edən namərdləri öz yuvalarına qovmağa gəlmişik.



Əsgərlərlə söhbətimi bitirdikdən sonra manqa komandiri kiçik çavuş Sədi Feyzullayevlə də tanış olmaq fürsəti tapıram. Sədi 3 ildir xidmət edir. Bura onun ilk xidmət yeri deyil. Başqa hərbi hissələrdə də xidmət edib. Taqım komandiri onun xidmətindən razılıqla danışdı. Hər bir əsgəri özünə dost, sirdaş hesab edən manqa komandiri onların daim qayğısına qalır, əsl döyüşçü kimi formalaşmaları üçün çalışır. "Ön xətdə xidmət edən əsgərin döyüş peşəkarlığını artırmaq əsas vəzifələrimizdən biridir. Çalışırıq ki, torpaqlarımızın müdafiəsində dayanan gənclər döyüş vərdişlərini, Vətəni qorumağın sirlərini dərindən mənimsəyə bilsinlər."

- Əsgərlər Qamil Əsgərov, Nahid Mehdiyev, Rahil Xuduzadə də söhbətlərində deyirlər ki, xalqımızı, Vətən torpaqlarını qorumaq onlara tapşırılıbsa, deməli, bu, həm də onlara göstərilən etimad deməkdir.

Artıq hava qaralır. Bir azdan ətrafa qaranlıq çökəcək. Amma atalar yaxşı deyib: "Hər qaranlıq gecənin bir nurlu sabahı var". Döyüşçülərimizdən nurlu sabahlarda, qələbə soraqlı günlərdə görüşmək arzusu ilə ayrılıram. Sağollaşanda bildirdilər ki, həmişə yurdumuzun keşiyində ayıq-sayıq dayanacaq, torpaqlarımızı erməni qəsbkarlarından azad etmək üçün hər an döyüşə hazır olacaqlar.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

---

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***31 oktyabr 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 110 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex, Şavarşavan, İcevan rayonunun Paravakar kəndlərində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Kəmərli, Fərəhli kəndlərində, Berd rayonunun Nerkin Karmirağbur, Mosesqex, Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Hacıalılı, Ağdam, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Şuraabad, Tağıbəyli, Baş Qərvənd, Sarıcalı, Novruzlu, Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Qorqan, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

*Döyüş hazırlığı*

# "Qəhrəmanlar sırasında olmaq bizim də arzumuzdur"

*Silahlı Qüvvələrimizdə döyüş hazırlığının yüksəldilməsi şəxsi heyətin qarşısında duran başlıca vəzifədir. Ordunun döyüş potensialında öz yeri olan artilleriya bölmələri də peşəkarlığını günü-gündən artırır. Tarix boyu müharibə meydanında öz sözlərini deyən topçularımız bu gün də qəhrəmanlıq ənənələrini qorumaqla, döyüş hazırlığı sahəsində yeni-yeni nailiyyətlər qazanırlar. Həmişə fərəhlə xatırladığımız Əlağa Şıxlinski və Səməd bəy Mehmandarov kimi artilleriyaçı sərkərdələrimizin adı Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub. Bu vətənpərvər hərb xadimləri keçmiş rus ordusunda tam artilleriya generalı rütbəsinə qədər yüksəliblər.*





Məşhur sərkərdələrin davamçıları olan artilleriyaçı zabit və əsgərlərimiz Vətənimizə şərəflə xidmət edir, öz döyüş bacarıqlarını gündən-günə artırırlar. Döyüş bölgəsində yerləşən hərbi hissələrə hər zaman həvəslə yollanıram. Vətənin keşiyində dayanan əsgərlərlə söhbətimiz zamanı onların yüksək döyüş ruhu insana könül xoşluğu verir.

Budur, artilleriya bölmələrindən birinin şəxsi heyəti döyüş hazırlığı məşğələsində peşə vərdişlərini yüksəltməklə məşğuldu. Hər bir heyət üzvü öz vəzifəsinin öhdəsindən layiqincə gəlməyə çalışırdı. Bir anlıq məşğələdə olduqlarını unudub sanki düşmən üzərinə mərmi yağdıracaqmış kimi hərəkət edirdilər.

- Bu dəqiqə döyüş əmri verilsə, topçular tapşırıqlarını əzmlə yerinə yetirməyə hazırdılar, - zabit İntiqam Məhərrəmov dedi. - Hazırda artilleriya bölməsində atışın idarə olunması məşğələsi keçirilir. Dərsin məqsədi düşmənin mövqelərdə yerləşən canlı qüvvə və atəş vasitələrini, eləcə də döyüş texnikalarını, digər heyətləri susdurmaq və məhv etmək mövzusunda şəxsi heyətin bilik və bacarığını artırmaqdır.

Dərs zamanı şəxsi heyət atəş mövqeyini tutur, toplar və cihazlar döyüş vəziyyətinə gətirilir. Komanda-müşahidə məntəqəsindən müəyyən edilən hədəflərin parametrləri rabitə vasitəsilə atəş mövqeyinə ötürülür. Batareyanın baş zabiti komandanı qəbul edərək topu hədəfə atəş açmağa hazırlayır və hazırlıq barədə komandirə məruzə edir.

- Top döyüşə! - komandası verilir. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ağasif Quliyev əmri heyət üzvlərinə təkrar çatdırır. Əsgərlər vəzifə bölgüsünə uyğun olaraq cəld hərəkətlə qurğunu döyüşə hazır vəziyyətə gətirirlər. Baş tuşlayıcı əsgər Sərxan Baxşıyev optik cihazı qılafından cihazın səbətciyinə bərkidərək sıfır vəziyyətinə gətirir. Top komandirinin dediyi göstəriciləri qurğunun panoramında müəyyənləşdirib məruzə edir. Digər topçular qundaq qolunu açıb, klini döyüş vəziyyətinə gətirdikdən sonra öz yerlərini tuturlar. Top komandiri dərhal bayrağı qaldırıb heyətin döyüşə hazır olduğunu bildirir.

- Mütəmadi keçirilən təlimlərdə bütün heyət üzvləri lazımınca məşq etdiyi üçün məşğələdə çətinlik çəkmədən topu normativə uyğun döyüş vəziyyətinə gətirdilər, - baş leytenant Elşad Xəlilov bildirdi. - Bütün əsgərlərimiz döyüş şəraitində xidmət etdiklərinin, torpaqlarımızın 20 faizinin işğalda olduğunun fərqindədirlər. Bu səbəbdən də hər biri xidmətinə məsuliyyətlə yanaşır, düşmənlə müqayisədə üstünlüklərini sübut etməyə çalışır. Bir növ aralarında sağlam rəqabət var, bu rəqabət isə onları daha da ruhlandırır. Beləliklə, hər biri peşəkar döyüşçü kimi formalaşır. Tabeliyində bacarıqlı əsgərləri olan hər bir komandir döyüş meydanında yenilməz qüvvə, düşmən üçün göz dağıdır. Məşğələ zamanı onların çevikliyinə diqqət etdiniz, belə əsgərlərlə döyüş meydanından yalnız qələbə ilə qayıtmaq mümkündür. Burada hər kəs artilleriyaçı olmağından qürur hissi keçirir. Çünki artilleriya da döyüş meydanında öz sözünü deyir.

Yüksək döyüş hazırlığına malik olmaq bütün Silahlı Qüvvələrin qarşısında duran başlıca vəzifədir. Döyüşdə qələbəni təmin etmək üçün mənəvi-psixoloji cəhətdən də hazırlıqlı əsgərlər yetişdirmək komandirlərin başlıca vəzifəsidir. Bütün qoşun növlərində olduğu kimi, artilleriyaçıların da bu sahədə hazırlığına ciddi fikir verilir.



Məşğələdən sonra heyət üzvləri ilə söhbətləşirəm. Şamaxı rayonundan hərbi xidmətə çağırılan Sərxan Baxşıyev 16 ayın əsgəridir. Top heyətində baş tuşlayıcı vəzifəsində xidmət edir. Ürəyi Vətən, torpaq sevgisi ilə dolu olan əsgər hər an döyüşə hazır olduğunu bildirir.

- Məzuniyyətdə olarkən ən çox eşitdiyim "tərxis olunmağa nə qədər vaxtın qalıb?" sualı idi. Bu suala bir cavabımız var: "Qarabağ azad olunana kimi biz özümüzü daim xidmətdə hiss edirik". Gördüyünüz bu topun sirlərini mükəmməl bilirik. Döyüş əmri verilən gün düşməni məhv edib torpaqlarımızı azad edəcəyik. Bu bizim vətəndaşlıq borcumuz olduğu qədər də mənəvi haqqımızdır.

Əsgər Orxan Həsənov isə Hacıqabul rayonundan hərbi xidmətə çağırılıb. Ali təhsilli əsgər döyüş vəzifəsinin öhdəsindən layiqincə gəldiyini bildirir.

- Heyət nəfəri vəzifəsindəyəm, - deyir. - Təlimlər zamanı mərmini götürəndə Çanaqqala savaşının əfsanəvi qəhrəmanı Seyit Onbaşı (Seyit Ali Çabuk) haqqında öyrəndiklərim yadıma düşür. Seyit Çanaqqala savaşı zamanı Rumeli batareyasında heyət nəfəri idi. 18 mart 1915-ci ildə ingilislərin gəmisi Çanaqqala boğazına yaxınlaşmışdı. Səhər saatlarına qədər davam edən döyüş zamanı bir çox top sıradan çıxmış, çoxlu əsgərlər şəhid olmuşdu. Bir neçə əsgərlə sağ qalan Seyit düşmən gəmisinin yaxınlaşdığını görür, əvvəlcə dənizə, gəmilərə, sonra topa və nəhayət, 275 kiloqramlıq mərmiyə baxır. Vətən sevgisi ilə mərmini kürəyinə alır və səndələyərək topa yaxınlaşıb vəzifəsini icra edir. "Bismillah" deyib atəş açır. Dəqiq atəş nəticəsində düşmən gəmisi suya batır. Seyit Alinin qəhrəmanlığı hazırda dillərdə dastandır. İstərdim ki, Qarabağ müharibəsində tarixə düşən qəhrəmanlarla birgə mənim də adım çəkilsin.

Tovuz rayonundan hərbi xidmətə çağırılan, 16 ayın əsgəri Eltac Nərimanov da heyət nəfəridir. Onun da ürəyi Vətən sevgisi ilə döyünür, torpaq həsrətində olan soydaşlarımızın nisgilinə son qoymaq onun da məqsədidir.

- Hansı bölgədən gəldiyimizdən, harada doğulduğumuzdan asılı olmayaraq bu gün hər birimizi narahat edən Qarabağ dərdidir. Torpaqlarımızı azad edən gün hamımız şuşalı, kəlbəcərli, qarabağlı olacağıq.

Azərbaycan əsgəri hərbi vərdişlərini artıraraq düşməni yurdumuzdan qovmağa, Azərbaycan bayrağını işğalda olan torpaqlarımızda ucaltmağa qadirdir. Əminəm ki, bir gün Azərbaycanın hər qarışında dalğalanan bayraq hamımızı qürur hissinə bürüyəcək...

**Baş leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

Ordu quruculuğu

# Azərbaycan düşmənlə müqayisədə tam üstünlüyə malikdir

*Ordu quruculuğu vahid tarixi bir prosesdir. Bu proses xalqın mənəvi keyfiyyətləri ilə dolğunlaşır. Dünyada müstəqil dövlətlərin təcrübəsindən məlumdur ki, ordu dövlətin suverenliyini və onun ərazi bütövlüyünü təmin etmək üçün yaradılan əsas qüvvədir. Ona görə də ordu dövlət quruculuğunun tərkib hissələrindən biridir. Azərbaycanda ordunun daim gücləndirilməsinin, döyüş qabiliyyətinin daha da artırılmasının və bu məqsədlə yeni, müasir hərbi sənaye güclərinin yaradılmasının dövlətin prioritet hədəfləri sırasına daxil edilməsi həm də onunla şərtlənir ki, respublikamız bədnam qonşularımız tərəfindən elan olunmamış müharibəyə cəlb olunub. Bu müharibə nəticəsində ölkə ərazisinin təxminən 20 faizi işğala məruz qalıb, 1 milyondan artıq soydaşımız doğma yurd-yuvalarından zorla qovularaq qaçqın vəziyyətə düşüb.*





Hazırda Azərbaycan beynəlxalq birlik tərəfindən tanınan sərhədlərinin bərpası, BMT Təhlükəsizlik Şurasının işğal edilmiş ərazilərimizin qeyd-şərtsiz azad edilməsi ilə bağlı 4 qətnaməsinin tələblərinin yerinə yetirilməsi üçün səylərini əsirgəmir. Dövlətimizin sülh danışıqlarına önəm verməsi, ilk növbədə xalqımızın humanizm ənənələrinə sadiqliyinin təzahürüdür. Ancaq Ermənistan bundan sonra da sülh danışıqlarında qeyri-konstruktiv mövqe nümayiş etdirsə, Azərbaycan özünün beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünü gündən-günə möhkəmlənən ordusunun gücü ilə təmin etmək məcburiyyətində qalacaq. Bununla bağlı ölkə Prezidenti İlham Əliyev Azərbaycan dövlətinin mövqeyini ifadə edərək bildirib ki, Azərbaycan ordu quruculuğuna daha da böyük diqqət göstərir, göstərəcəkdir, çünki danışıqlar nəticə verməsə, bizim başqa yolumuz qalmayacaqdır.

Azərbaycanın ordu quruculuğunda aparılan islahatların milli təhlükəsizliyimizə xidmət etdiyini "Düşmənin hücumlarının qarşısını qətiyyətlə alan və xeyli canlı qüvvə itirən Ermənistana layiq olduğu cavabı verən Azərbaycan əsgərlərinin mətanəti göstərdi ki, dünya birliyində nüfuzu getdikcə artan, mövqeləri möhkəmlənən, siyasi və diplomatik əlaqələri genişlənən Azərbaycan həm də güclü müdafiə qüdrətinə malikdir" sözləri ilə ifadə edən Ali Baş Komandan vurğulayır ki, biz güclü hərbi potensiala malikik. "Artıq bu, müxtəlif vaxtlarda nümayiş etdirilib. Hərbi təlimlərdə və paradlarda bizim texnikamız nümayiş etdirilir. Amma bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətənpərvərliyidir."

Bəli, siyasi-iqtisadi inkişaf kontekstində ordu quruculuğunun təkmilləşdirilməsi üçün aparılan islahatlar inkişafın Azərbaycan modelinin əsas prioritetlərindəndir. Son illərdə Azərbaycanın iqtisadi qüdrətinin artması, maliyyə imkanlarının genişlənməsi ordu quruculuğu ilə bağlı qarşıya qoyulan hədəfləri reallaşdırmağa imkan verib. Azərbaycanın dövlət büdcəsində ən böyük xərclər məhz ordu quruculuğu üçün nəzərdə tutulub. Son 10 ildə ölkəmizin dövlət büdcəsində ordu üçün nəzərdə tutulan xərclər 20 dəfədən çox artıb.

Hazırda ordumuzun arsenalında olan ən müasir silahlar, tanklar, artilleriya qurğuları, döyüş təyyarələri və digər texnikalar düşmənin istənilən hədəfini məhv etməyə qadirdir. Təsadüfi deyil ki, 2014-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 96-cı ildönümü münasibətilə Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının və Dövlət Sərhəd Xidmətinin birləşmə və hissələrinin irimiqyaslı birgə əməliyyat-taktiki təlimi Azərbaycan Ordusunun qüdrətini bir daha nümayiş etdirmişdi. O zaman ümumilikdə, təlimlərə 4 min nəfərədək şəxsi heyət, 80 tank, 100-dək zirehli döyüş maşını, 80-ə qədər artilleriya sistemi, 10 döyüş təyyarəsi, 20-dək döyüş və nəqliyyat-döyüş helikopteri cəlb olunmuşdu. Təlimlər zamanı Silahlı Qüvvələrimizin qarşısına qoyulan bütün tapşırıqlar yüksək səviyyədə yerinə yetirilmişdi ki, bu da şəxsi heyətin peşəkarlığının, döyüş hazırlığının təsdiqi idi.

Beynəlxalq əlaqələrə gəldikdə isə, bölgədə ən qüdrətli orduya malik Azərbaycanın NATO tərəfindən yaradılmış Şimali Atlantika Əməkdaşlıq Şurasına daxil olması, "Sülh Naminə Tərəfdaşlıq" proqramına qoşularaq hərbi təlimlərdə iştirak etməsi ordumuzun NATO standartları səviyyəsində hazırlıqlı olmasının göstəricisidir. Ölkəmizi bu qurumda ləyaqətlə təmsil edən hərbçilərimizin təlimlərdə hərbi hazırlığının beynəlxalq ekspertlər tərəfindən yüksək qiymətləndirilməsi hər bir azərbaycanlıda qürur hissi doğurur.

Ölkəmizdə hərbi qulluqçuların sosial müdafiəsini gücləndirmək məqsədilə mühüm layihələr icra olunur. Silahlı Qüvvələrimizin şəxsi heyətinin həyat şəraitinin yaxşılaşdırılması məsələsinə xüsusi diqqətlə yanaşan Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə çox mühüm və ardıcıl tədbirlər həyata keçirilir. Növbəti il üçün dövlət büdcəsində hərbi xərclərin yenidən artırılması da bu siyasətin davamlı olduğunu sübuta yetirir.

Orduda aparılan islahatlardan danışarkən qeyd olunmalıdır ki, Silahlı Qüvvələrimizin şəxsi heyətinin xidmət şəraiti getdikcə daha da yaxşılaşır. Bir çox hərbi hissələr müasir, dünya standartlarına cavab verən yeni hərbi şəhərciklərlə əvəz olunur. Bu da şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının artırılmasına güclü təkan verir.

Ali Baş Komandan İlham Əliyev ordu quruculuğundan danışarkən qeyd edir ki, ordu quruculuğu prosesi, təbii ki, təkcə maddi-texniki təminatla məhdudlaşmır. "Döyüş qabiliyyəti, əsgər-zabit heyətinin mənəvi-psixoloji durumu mühüm yer tutur. Mən tam əminliklə deyə bilərəm ki, bu baxımdan Azərbaycan Ordusu güclü ordular sırasındadır".

Ordu quruculuğu sahəsində nailiyyətlər qazanan Azərbaycanın uğurlarından ehtiyatlanan ermənipərəst qüvvələrin narahatlığının heç bir əsası olmadığını "Müdafiə məsələlərini həll etmək Azərbaycanın suveren hüququdur" sözləri ilə bildirən Ali Baş Komandan İlham Əliyevin tez-tez cəbhə bölgəsində olması zabit və əsgərlərimizin döyüş əhval-ruhiyyəsini artırmaqla xalq-ordu birliyini daha da möhkəmləndirir.

Müzəffər Azərbaycan Ordusunun keçən il aprelin əvvəllərində düşmən təxribatının qarşısını alaraq əks-hücumla 2 min hektar ərazini işğaldan azad etməsi beynəlxalq birlik tərəfindən qəbul olundu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradə və qətiyyətini, habelə xalqımızın böyük dəstəyini hiss edən Silahlı Qüvvələrimiz 1994-cü il mayın 12-də imzalanan atəşkəsdən sonra ilk irimiqyaslı hərbi əməliyyatında yüksək taktiki və strateji hazırlıq səviyyəsini və işğal altında olan torpaqlarımızı azad etmək əzmini bir daha nümayiş etdirdi.

Azərbaycan Ordusunun cəmi bir neçə gündə həyata keçirdiyi uğurlu əks-hücum nəticəsində düşmənin çoxlu sayda canlı qüvvəsinin və zirehli texnikasının məhv edilməsi xalqımız tərəfindən böyük coşqu ilə qarşılandı. Bir daha təsdiqləndi ki, ötən illər hədər getməyib. Azərbaycanda təməli ulu öndər Heydər Əliyev tərəfindən yaradılan müasir ordu quruculuğu sahəsində görülən işlər səmərəsini verir.



Hər il ordumuzun keçirdiyi genişmiqyaslı təlimlər Silahlı Qüvvələrimizin peşəkarlıq səviyyəsinin daha da artırılmasına xidmət edir. Bu il Azərbaycan "Beynəlxalq Ordu Oyunları-2017" yarışlarına ev sahibliyi etdi. Mayın əvvəllərində Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimləri, sentyabrın 18-dən 30-dək yenə də iki qardaş dövlət arasında hərbi əməkdaşlıq planına əsasən Hərbi Hava Qüvvələrinin iştirakı ilə "TurAz Qartalı-2017" birgə taktiki uçuş təlimləri keçirildi.

İrimiqyaslı hərbi təlimlər ordu quruculuğunda aparılan islahatlara məqsədyönlü istiqamət verir. Bildiyimiz kimi, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə orduda məqsədli islahatlar həyata keçirilir. Son dövrlərdə bölgələrdə çoxlu sayda hərbi hissələr sökülərək yerində daha müasirləri tikilib və şəxsi heyətin istifadəsinə verilib. Bununla da hərbi qulluqçularımız üçün rahat, əlverişli şərait qurulub. Artıq 3 ildir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən orduda "Açıq qapı" günləri keçirilir. Həmin tədbirlərdə əsgər valideynləri, ictimaiyyət nümayəndələri, hər kəs hərbi hissələrdə yaradılan şəraitlə yaxından tanış olmaq imkanı qazanır.

Müdafiə naziri general-polkovnik Zakir Həsənov tez-tez cəbhə bölgəsində Vətənin keşiyində ayıq-sayıq dayanan əsgərlərimizlə görüşür, onların qayğılarıyla maraqlanır, xidmətdə fərqlənən hərbi qulluqçularını qiymətli hədiyyələrlə mükafatlandırır. Bütün bunlar şəxsi heyətin döyüş ruhunu artırmaqla ordu quruculuğunda aparılan islahatlara güclü təkan verən amillərdir.

Azərbaycan Ordusu bu gün nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır - həm hərbi potensialına, həm də döyüş qabiliyyətinə görə. Azərbaycan gücləndikcə ordumuz da güclənəcəkdir. Dövlət başçımızın "Mən Ali Baş Komandan kimi bundan sonra da ordu quruculuğuna, ordunun inkişafına öz dəstəyimi verəcəyəm" sözləri ordumuzun şəxsi heyəti qarşısında böyük məsuliyyət deməkdir. Şübhəsiz, bu inamı, etimadı doğrultmaq üçün Azərbaycan zabiti, əsgəri döyüş vərdişlərini durmadan artıracaqdır.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar arxivdəndir**

# Lələtəpədə Vətən müdafiəçiləri ilə görüş

*2016-cı ilin aprel döyüşləri təsdiqlədi ki, ordu ilə xalqın birliyi böyük qüvvədir. Bu birlik istər forma, istərsə də məzmun etibarilə dərinləşməkdədir. İctimaiyyətin nümayəndələri, millət vəkilləri vaxtaşırı düşmənlə təmas xəttində xidmət edən əsgərlərlə görüşür, səmimi söhbətlər edirlər. Bu, Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığında mühüm vasitələrdən biri kimi dəyərləndirilməlidir.*



Milli Məclisin deputatı, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Siyasi Araşdırmalar İnstitutunun direktoru, siyasi elmlər doktoru, professor Elman Nəsirov bu günlərdə düşmənlə üzbəüz mövqelərdə xidmət edən əsgərlərlə görüşüb.

"Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində Silahlı Qüvvələrimizin hərbi qulluqçusunun şəhid olması və son günlər Ermənistan hakimiyyətinin məsuliyyətsiz bəyanatlar verməklə beynəlxalq ictimaiyyətdə və erməni xalqında qoşunların qarşıdurma xəttindəki vəziyyət barədə yanlış fikir formalaşdırmağa, törətdikləri təxribatlara haqq qazandırmağa və cavabdehlikdən yaxa qurtarmağa cəhd göstərməsi məni də çox narahat edirdi.

Füzuli rayonunun Horadiz qəsəbəsinə şəhər statusu verilməsinin 10 illiyinə həsr olunmuş kütləvi vətənpərvərlik tədbirində iştirak etmək üçün bu bölgəyə getmişdim. Tədbirdən sonra Müdafiə Nazirliyinin rəsmisindən və birlik komandirindən Lələtəpə zirvəsinə qalxmaq üçün şərait yaradılmasını xahiş etdim və bu xahişim məmnuniyyətlə yerinə yetirildi. Əvvəlcə Lələtəpəyə gedən yolda aprel şəhidlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək xalqımıza qələbə sevinci bəxş edən şəhidlərimizi ehtiramla yad etdik.

Atəş səsləri eşidilirdi, düşmən yenə mövqelərimizi atəşə tutmuşdu. Ancaq biz ora çatanda tam sakitlik idi. Əsgərlərin üzü gülürdü. Yenə də onların qətiyyəti sayəsində düşmən susdurulmuşdu.

Əsgərlərlə görüşdüm, xidmət şəraitləri ilə tanış oldum, hərbi texnika, silah-sursatlarla maraqlandım. Hər şey qürurverici idi. Düşmənə zərbə vurmaq üçün yetərli canlı qüvvə, texnika və silah-sursatımız var idi. Xüsusilə əsgərlərin mənəvi-psixoloji hazırlığı, döyüş ruhunun, vətənpərvərlik hissinin yüksək olması məni sevindirdi. Onların qayğı və problemləri ilə maraqlananda cavabları qısa oldu: "Yalnız Qarabağ problemimiz var. Aprel döyüşlərini təkrarlamağa, düşmənə daha ağır zərbələr vurmağa hər an hazırıq!".

Bütün əsgərlər işğal altında olan torpaqlarımızın tezliklə azad ediləcəyindən elə inamla danışırdılar ki, doğrusu, mən özümü sanki Xankəndidə, Şuşada, Laçında hiss edirdim..."

**"Azərbaycan Ordusu"**

"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"

# Əsgərlər bilik yarışmasında

*Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, oktyabrın 29-da "N" hərbi hissəsində "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" devizi ilə müsabiqə keçirildi. Müsabiqədə bölmələrin şəxsi heyətindən ibarət üç komanda yaradıldı. Komandalara şərti olaraq işğal altında olan bölgələrimizin - Kəlbəcər, Şuşa və Laçın rayonlarının adları verildi. Suallar Azərbaycan tarixini əhatə edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından müasir dövrümüzə qədər xalqımızın keçdiyi inkişaf yolu, ordumuzun yaranması və inkişaf mərhələləri, dövlət rəmzləri, həmçinin 2016-ci ilin aprel döyüşlərinə aid suallar müsabiqənin şərtlərinə daxil edilmişdi.*



Bir qrup əsgərin qatıldığı bilik yarışmasında mayorlar Məhəmməd Əliyev və Çingiz Cəbiyevdən ibarət münsif heyəti tərəfindən qaliblər müəyyən edilirdi.

Müsabiqənin keçirilməsində əsas məqsəd şəxsi heyətə tariximizi təbliğ etmək, onlarda Vətənə, xalqa, dövlətçiliyə hörmət və sevgi hissləri aşılamaq, vətənpərvərlik duyğularını inkişaf etdirməkdən ibarətdir.

Yarış başlamazdan əvvəl ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olan soydaşlarımızın ruhu bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Sualların səsləndirilməsi ilə başlanan müsabiqə bir neçə saat davam etdi.

Sonda verilən sualları daha dəqiq cavablandıran "Şuşa" komandası adını birinciliyə yazdırdı. "Kəlbəcər" ikinci, "Laçın" isə üçüncü oldular.

"Şuşa" komandasının rəhbəri əsgər Nail Abbaszadəyə üzərində "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır" sözləri əks olunmuş kubok təqdim edildi. İkinci və üçüncü yerlərin sahiblərinə isə hərbi hissə komandiri adından fəxri fərman verildi.

Müsabiqədə qalib olan "Şuşa" komandasının sevincinə şərik olduq. Əsgər Nail Abbaszadə ürək sözlərini bölüşərək dedi:

- Biz çox sevinirik ki, üç komanda arasında keçirilən müsabiqənin qalibi olduq. Mən orta məktəb illərində də həmişə tarix fənninə maraq göstərmişəm. Tariximizi yaxşı bilməliyik ki, ermənilərin torpaqlarımıza ərazi iddialarının yalan olduğunu bütün dünyaya çatdıraq. Bu gün ordunun əsgəri və sabah cəmiyyətin bir üzvü kimi yaxşı dərk edirik ki, ermənilərin yaşadığı bütün torpaqlar Azərbaycan dövlətinin tarixi əraziləridir. Çox keçməyəcək ki, Ali Baş Komandanımızın əmri ilə ordumuz işğalda olan torpaqlarımızı son qarışına qədər azad etmək üçün vuruşacaq, düşməni Vətənimizdən qovub çıxaracağıq.

Söhbətim zamanı öyrənirəm ki, gənc əsgər Göygöl rayonundan hərbi xidmətə çağırılıb. 4 aydır ordu həyatı yaşayır. Hələ gənc əsgərlərin təlim mərhələsində olan bu əsgərimizin sözlərindən bir daha başa düşülür ki, istər Azərbaycan xalqı, istərsə də ordumuzun şəxsi heyəti Qarabağımızın düşmən tapdağında olması ilə barışmır, hər an torpaqlarımızın azadlığı uğrunda vuruşmağa hazırdır.



Komandanın digər üzvləri də qeyd etdilər ki, əgər öz yaşadığın yerin, oxuyub təhsil aldığın, boya-başa çatdığın yurdun keçmişini, bu gününü yaxşı bilməsən, onu layiqincə qorumaq mümkün olmayacaq. Bir sözlə, hər kəs əsl vətəndaş olmaq üçün mənsub olduğu xalqın tarixini dərindən öyrənməli və öz Vətəni ilə qürur duymalıdır.

Müsabiqə sona çatdıqdan sonra əsgərlər Heydər Əliyev Mərkəzində filmə baxdılar.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# "Pakistan in the World" jurnalı Zəngilanın Ermənistan tərəfindən işğalından yazır

"Pakistan in the World" jurnalının elektron səhifəsində "Azərbaycanın Zəngilan rayonunun Ermənistan tərəfindən işğalı" sərlövhəli məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə 29 oktyabr tarixinin Zəngilan rayonunun Ermənistan tərəfindən işğalının 24-cü ildönümü kimi yad olunduğu bildirilir, rayonun coğrafi mövqeyi barədə məlumat verilir, strateji mövqedə yerləşdiyi diqqətə çatdırılır.

Məqalədə Zəngilanın çar Rusiyası tərəfindən işğalından başlayaraq Sovet dövrünə qədər keçdiyi inzibati-ərazi bölgüsü barədə də məlumat verilir, 1967-ci ildə Zəngilana şəhər statusu verildiyi qeyd olunur. Eyni zamanda, bölgənin Sovet dövründə mənəvi və maddi itkilərə məruz qaldığı, kollektivləşmə və repressiyaların burada ciddi iz qoyduğu vurğulanır. Həmçinin Zəngilanın təbiəti, bölgədə yerləşən dağ silsilələri, iqlim şəraiti haqqında söhbət açılır.

Yazıda Füzuli və Cəbrayıl rayonları işğal olunduqdan sonra zəngilanlıların 67 gün tam mühasirə şəraitində ermənilərə sinə gərdiyi, 1993-cü il oktyabrın 25-29-da Zəngilan rayonunun əhalisinin son anadək vuruşaraq Araz çayını keçdiyi, İran ərazisi ilə Azərbaycanın müxtəlif rayonlarında məskunlaşdığı və Ermənistanın işğalı ilə rayonun böyük fəlakətlə üz-üzə qaldığı qeyd olunur.

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır

*Ulu öndər Heydər Əliyevin 1990-1993-cü illərdə - Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə xalqımız qarşısında ən böyük xidmətlərindən biri muxtar respublikanın təhlükəsizliyini təmin etməklə yanaşı, burada Azərbaycanın ilk milli nizami ordu hissələrini yaratmasıdır. Həmin illərdə ordu quruculuğu istiqamətində mühüm qərarlar qəbul edilib.*



AZƏRTAC xəbər verir ki, bu barədə Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Heydər Əliyev adına Hərbi Liseyin kursantları üçün "Ulu öndər Heydər Əliyev və Azərbaycan Ordusu" mövzusunda keçilən açıq dərsdə danışılıb.

Tədbirdə muzeyin direktoru Ramil Orucəliyev bildirib ki, Azərbaycan Ordusunun yaradılması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Vurğulanıb ki, 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumlarından biri olan əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilib. 1992-ci il sentyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasının müdafiəsinin və sərhədlərinin qorunmasının təşkili haqqında" Qərar qəbul olunub.

Bildirilib ki, bu gün ölkəmizdə ordu quruculuğu sahəsində böyük nailiyyətlər əldə edilib, Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən qüdrətli ordusuna çevrilib. Oktyabrın 18-də - Dövlət Müstəqilliyi Günündə muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən hərbi parad qədim diyarın təhlükəsizliyini təmin edən Əlahiddə Ümumqoşun Ordunun gücünü bir daha nümayiş etdirdi.

Açıq dərsdə kursantlar "Hərb tarixində Heydər Əliyev fenomeni" filminə baxıblar.

## "Azərbaycan İspaniyanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir"

*Azərbaycan Respublikası İspaniya Krallığının beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyini dəstəkləyir.*

Bunu AZƏRTAC-a açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib.

O deyib: "Mövcud vəziyyətin İspaniya Krallığının Konstitusiyası və qanunları əsasında sülh yolu ilə həllinin tərəfdarıyıq. Xalqın və mərkəzi hakimiyyətin iradəsinə zidd olaraq İspaniyanın Konstitusiyası və qanunlarının pozulması ilə müşayiət olunan ölkənin ərazi bütövlüyünün birtərəfli pozulması cəhdləri qəbuledilməzdir".

# Cəsurluq, fədakarlıq unudulmur






*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə qəhrəmanların xatirəsi həmişə ehtiramla yad edilir. 1995-ci ilin 25 oktyabrında "Ulduz" stansiyası ilə "Nərimanov" stansiyası arasında törədilən təxribat nəticəsində onlarla vətəndaşımızı itirdik. Bu dəhşətli faciədən uzun illər ötsə də, o qanlı hadisə unudulmur.*

Baş verən qanlı faciə zamanı yaralananlara kömək edənlər arasında Cəmşid Naxçıvanski adına Hərbi Liseyin zabiti, ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı fəxri adına layiq görülmüş baş leytenant Çingiz Babayev və "İgidliyə görə" medalı ilə təltif olunmuş kursantlar Samir Məmmədov, Ruslan İsayev və Nicat Səfərov da olub.

Faciənin ildönümü ərəfəsində C.Naxçıvanski adına Hərbi Liseyin zabitləri, kursantları və müəllimləri Azərbaycanın Milli Qəhrəmanı baş leytenant Çingiz Babayevin və kursant Samir Məmmədovun məzarını ziyarət etdilər.

Əvvəlcə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Babayevin Yasamal qəbiristanlığındakı məzarı ziyarət olundu. Kapitan Fərid Rüstəmli başda olmaqla kursantlar qəhrəmanın məzarı üzərinə qərənfillər düzdülər və xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Sonra kursantlar Badamdar qəsəbəsində "İgidliyə görə" medalı ilə təltif olunmuş kursant Samir Məmmədovun xatirəsini hörmətlə yad etdilər. Samirin atası Nadir Məmmədov oğlu haqqında kursantlara qısaca məlumat verdi:

- Mənim də oğlum bir vaxtlar zabit olmaq istəyirdi, Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil alırdı. Yaxşı oxuyurdu. İnanırdım ki, o gələcəkdə peşəkar hərbçi olacaq. Metroda baş vermiş faciə onun ömrünü də, arzularını da yarımçıq qoydu. Övladımın xatirəsini əziz tutduqlarına görə C.Naxçıvanski adına Hərbi Liseyin rəhbərliyinə minnətdarlığımı bildirirəm.

Kapitan Fərid Rüstəmli, Hərbi liseyin tərbiyəçi müəllimi Məhərrəm Fərziyev, kursantlardan Səbuhi İbrahimli, Yusif Baqıyev, Elmin Əliyev və başqaları çıxış edərək bildirdilər ki, bu cəsur oğulların adlarını həmişə uca tutacaq, qəhrəmanlığı, igidliyi onlardan öyrənəcəklər.

Tədbirin davamı olaraq onların xatirəsinə həsr olunmuş anım mərasimi keçirildi. Mayor Natiq Rəhimov dəvət olunan qonaqları iştirakçılara təqdim etdi. Ümummilli lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Mərasim iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini oxudular.



Çıxış edənlər baş leytenant Çingiz Babayevin və kursantların faciə zamanı göstərdikləri qəhrəmanlıqdan söhbət açdılar.

Rejissoru Elnur Əliyev olan "O qatar çatmadı mənzil başına" sənədli filmi nümayiş olundu. Filmdə zabit və kursantların igidliyindən, cəsurluğundan ətraflı söhbət açılır.

Sonra Hərbi liseyin müəllimi Yengibar Müzəffərovun rəhbərliyi ilə hazırlanmış "Qəhrəmanlar ölməzdir" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirildi.

Azərbaycan dili və ədəbiyyatı müəllimi Gülsəda Quluqızı Çingiz Babayevə həsr etdiyi şeirini oxudu.

Kursant Samir Məmmədovun atası Nadir Məmmədov çıxış edərək övladının uşaqlıq və gənclik illərini xatırladı. Onun həyatında baş vermiş maraqlı hadisələrdən danışdı.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

## Ordu və cəmiyyət

# "Şəhidlər ölməzdirlər"

*Müəllim hər birimizin həyat yolunu işıqlandıran, bizə elm, bilik öyrədən və bu yolda ömrünü şam kimi əridən müqəddəs peşə sahibidir. Bu adı şərəflə daşıyan, ömrünü şagirdlərinə həsr edən müəllimlərdən biri də Dursun Abdullayevadır.*



Dursun müəllimin pedaqoji fəaliyyəti 42 ildən artıq bir dövrü əhatə edir. Bu gün vaxtilə onun dərs dediyi şagirdlər arasında neçə-neçə həkim, müəllim, hərbçi, mühəndis və digər sənət sahibi var. Onlar ilk müəllimlərini heç vaxt unutmur, hər zaman xatırlayır, vaxtaşırı onun görüşünə gedirlər. Eyni zamanda onların arasında ölkədən kənarda Vətənimizi təmsil edənləri də yetərincədir.

Onun da dərs dediyi şagirdlərdən bir çoxu Qarabağ müharibəsi başlayanda könüllü olaraq cəbhəyə yollanıb, Vətən, torpaq uğrunda döyüşüb. Yetirmələri arasında ordumuzun peşəkar zabitləri olaraq ömürlərini Vətənə xidmətə həsr edənlər də var.

Qəzetimizin "Ordu və cəmiyyət" rubrikasının qonağı olan Dursun Abdullayeva Şəki rayon Kiş kənd Heydər Əliyev adına 4 saylı tam orta məktəbdə çalışır. Uzunmüddətli pedaqoji təcrübəyə malik müəllim təhsilin hər zaman xalqın, millətin həyatında böyük rol oynadığını qeyd edir. "Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, elm, təhsil, mədəniyyət sahəsində əldə etdiyimiz nailiyyətlər, Azərbaycan xalqının bugünkü yüksək təhsil, elm, mədəniyyət səviyyəsi, şüur səviyyəsi - bunların hamısı ilk növbədə müəllimlərin xidmətlərinin nəticəsidir."

Əlbəttə, hər bir vətəndaşın həyatda uğur qazanmasının yolu təhsildən başlanır. Ona görə də Ümummilli Liderimiz cəmiyyətə və dövlət quruculuğuna bir sistem halında yanaşaraq, burada təhsilin də yerini müəyyənləşdirməyi heç vaxt unutmurdu. Dursun müəllimə görə, bu prosesdə uğurla iştirak etmək üçün insan müasir təhsilə malik olmalıdı. "Dərs dediyim məktəb Ulu Öndərimizin adını daşıyır. 2002-ci ildə rayonumuza gələrkən elm, təhsil, mədəniyyətlə maraqlanan ümummilli liderimiz Heydər Əliyev qədim Kiş kəndində hazırda dərs dediyim müasir təhsil kompleksinin tikilməsinə xüsusi göstəriş vermişdi. Bu gün çox qürurluyam ki, Ulu Öndərin adını daşıyan məktəbdə çalışıram".

Ordu ilə cəmiyyətin vahid birliyindən danışan müəllim onu da vurğuladı ki, hər bir dövlət öz ordusu ilə möhtəşəm olur. "Ordu güclüdürsə, onun dövləti də sarsılmazdır. Hamıya bəllidir ki, nankor qonşularımız olan ermənilər çörəyimizi yeyib sonradan bizə dönük çıxıblar. Onların nə yurdu olub, nə də məkanı bilinib. Tarix boyu onun-bunun torpağında sığınacaqlar tapıblar və həmin torpaqlara yiyələnməyə can atıblar. Bu gün yenilməz ordumuz ərazi bütövlüyümüzün təmin olunması üçün Ali Baş Komandanın əmrini gözləyir və mütləq bu vəzifənin öhdəsindən gələcəkdir".

Müsahibim ordumuzun keçən il aprel döyüşlərindəki qələbələrinin düşmənə böyük zərbə olduğunu bildirərək dedi ki, hərbçilərimizin qəhrəmanlığından bütün Azərbaycan xalqının böyük sevincinə səbəb oldu, şanlı, qüdrətli Azərbaycan Ordusu düşmənə nəyə qadir olduğunu bir daha sübut etdi. "Azərbaycan Ordusunda şəxsi heyətin mənəvi-psixoloji ruhu yüksəkdir. Hərbçilərimizdə döyüş əzmi var. Ordumuzun aprel qələbəsi dünyaya göstərdi ki, Azərbaycan xalqının gözü heç kimin torpağında deyil, bu xalqın övladları haqq işi uğrunda, öz torpağı uğrunda döyüşür və şəhid olur. Bu möhtəşəm qələbə ilə Azərbaycan Ordusu regionun ən güclü ordusu olduğunu bir daha təsdiqlədi. Bizim ordumuz, dövlətimiz sülhsevər, vətənpərvər və haqq-ədalət tərəfdarıdır. Biz yalnız öz torpaqlarımızı qoruyur, ərazi bütövlüyümüzü təmin etmək üçün mübarizə aparırıq. Odur ki, qələbə bizimlədir".

Onu da qeyd edim ki, Dursun Abdullayeva ordumuzun şəhid zabiti Aqşin Abdullayevin anasıdır. Ordudya qırılmaz tellərlə bağlı olan müəllim şagirdlərinə ildir ki, Azərbaycanın peşəkar Silahlı Qüvvələrini təbliğ edir, hərbçilərimizin peşə borcunun nə qədər müqəddəs olmasından danışır.

Həmsöhbətim qeyd etdi ki, şagirdlərinə ordumuzun aprel zəfərindən, hərbçilərimizin qəhrəmanlığından böyük həvəslə danışır. "Həmin ərəfədə vahimə və qorxu içərisində olan ermənilər silahsursatlarını atıb qaçırdılar. Canlarını qurtarmaq istəyən erməni əsgərləri artıq özləri də başa düşmüşdülər ki, başqasının torpağında oturmaq heç də asan iş deyil, başqa dövlətin torpağını zəbt etmək işğalçılıq əməlidir. Bu, həm də bir daha onu sübut etdi ki, erməni həmişə qorxaq, ziyankar, hiyləgər, xəyanətkar olub və çörəyi də dizinin üstədir. Yüzlərlə zabit və əsgər itirən düşmən artıq Azərbaycan Ordusunun qarşısında aciz olduğunu həmin günlərdə dərindən anladı..."

Bu il yeni dərs ilinin ilk məşğələsinin aprel döyüşləri və Cocuq Mərcanlı kəndinin işğaldan azad edilməsinə həsr olunduğunu, mövzu barədə şagirdlərinə geniş və ətraflı məlumat çatdırdığını söyləyən Dursun müəllim bildirdi ki, Vətən yolunda, ərazi bütövlüyümüz uğrunda şəhid olan oğullarımızın qanı yerdə qalmayacaq. "Biz şəhid valideynləri övladlarımızın Vətən yolunda şəhid olması ilə qürur duyuruq. "Təki Vətən yaşasın!" deyirik. Axı oğul düşmən çəpəridir deyiblər. Bütün şəhid analarına üzümü tutub deyirəm: başlarınızı uca tutun. Fəxr edin ki, övladlarımız şərəflə döyüşüb, Vətən yolunda canlarından keçiblər. Bilin ki, şəhidlər Tanrı dərgahının ən uca zirvəsinin - şəhidlik zirvəsinin əbədi sakinləridir. Bir şeirdə deyildiyi kimi:

*Şəhidlər ölməzlərdir,*
*Ölməzi ağlamazlar...*

Biz inanırıq ki, tezliklə ordumuz ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində torpaqlarımızı işğaldan azad edəcək və üçrəngli bayrağımız işğal altında olan torpaqlarımızda dalğalanacaq".

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# HDQ-nin Göyərtə qrupunun NATO standartlarına uyğun qiymətləndirilməsi müvəffəqiyyətlə keçirilib

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Bakıda NATO-nun Əməliyyat İmkanları Konsepsiyası (ƏİK) Proqramı çərçivəsində Hərbi Dəniz Qüvvələrinin Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş Göyərtə qrupunun "Dənizdə qadağa əməliyyatları" üzrə NATO standartlarına uyğun 1-ci səviyyəli özünüqiymətləndirməsi (SEL-1) keçirilib.

NATO-nun Nortvud Hərbi Dəniz Qərargahının nümayəndə heyətinin müşahidəçi qismində iştirak etdiyi SEL-1-in əsas məqsədi Ortaq Qüvvələr Birliyinə bəyan edilmiş Göyərtə qrupunun fəaliyyətinin və təchizatının Şimali Atlantika Alyansının standartlarına uyğunluğunu yoxlamaqdan ibarət olub.



Qeyd edək ki, ilk dəfə keçirilən bu qiymətləndirmə Silahlı Qüvvələrimizin nümayəndələri tərəfindən həyata keçirilib və bu Hərbi Dəniz Qüvvələrinin Dənizdə Qadağa Əməliyyatları üzrə Göyərtə qrupunun silsilə qiymətləndirmələrinin başlanğıcıdır.



# Növbəti səfərlər ümidi ilə...

*Dağların zirvəsində yerləşən döyüş mövqeyindən qayıdırıq. Kələ-kötürlü yollarda avtomobili ustalıqla idarə edən, narahatçılığı bizə hiss etdirməyən sürücümüzün fikri yalnız yoldadır, maşını sərbəst idarə etmək bacarığı ilə hamını heyran edir.*

Hərbi hissəyə daxil olduqdan sonra sürücü maşınını avtomobil parkına aparır. Kənardan dayanıb seyr edirəm. Avtomobilinə texniki qulluq göstərməyi də diqqətimi cəlb edir.

Söhbət əsnasında 10 ildən artıq xidmət etdiyini öyrənirəm. Gənc yaşlarından hərbi formalılara həsrətlə baxdığını deyən çavuş Vüqar Orucov bildirir ki, sürücülük asan peşə deyil. "Hərbi sürücülük isə daha çətindir, ağır və mürəkkəb hərbi texnikanı idarə etmək yüksək bacarıq tələb edir. Bu maşınları təkcə asfalt yolda deyil, ekstremal şəraitdə idarə etmək lazım gəlir. Hərbi texnikanın sükanı arxasına keçdikdə bu məsuliyyətin hamısını öz çiyinlərimə götürürəm". Həmsöhbətim avtomobil və texnikaların həmişə "səfər" vəziyyətində olduğunu bildirir: "Hər an həyəcan siqnalı verilə bilər. Texnikalarımızın təyin olunmuş əraziyə vaxtında çatması üçün onlar daim saz vəziyyətdə olmalıdır. Bunun üçün də maşınlara daim yüksək texniki qulluq göstəririk".

Fikir verirəm, bir an da gözünü avtomobilindən ayırmayır.

- Texnikaları təmiz saxlamaq onların ömrünü uzadır, çatışmazlıqların aradan qaldırılması isə onların daim səfərə hazırlığını təmin etmək məqsədini daşıyır, - deyə həmsöhbətim bildirir: - Avtomobili idarə etmək asandır, razıyam. Hamı bacara bilər. Yalnız bu bir dəmir parçasıdır ki, buna heç vaxt etibar etmək olmur. İstənilən an hər hansı bir detal sıradan çıxa bilər. Bunun üçün idarə etdiyin avtomobilin, texnikanın bütün incəliklərini bilməlisən ki, nasazlıq olanda tez aradan qaldırıb verilən tapşırığı vaxtında yerinə yetirə biləsən".

Çavuş V.Orucova görə, maşını yaxşı idarə etmək üçün yol hərəkəti qaydalarını da mükəmməl bilmək vacibdir. "Hərbi texnikalarla səfərə çıxanda hər zaman diqqətli olmaq lazımdır".

Sürücümüzün əlini sıxıb növbəti səfərlərinin Laçına, Kəlbəcərə, Şuşaya... da təsadüf etməsini arzulayıram.

**Leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# “Ordumuz gündən-günə güclənir və inkişaf edir”





Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) aparatının hərbi qulluqçuların müdafiəsi sektorunun müdiri Fəzail Həsənov və böyük məsləhətçi Murad Babayev Cəmşid Naxçıvanski adına Hərbi Liseyə baxış keçirdilər. Əvvəlcə nümayəndələrə Hərbi lisey haqqında ətraflı məlumat verildi.

Ombudsman aparatının rəhbərliyi kursantların sosial şəraiti ilə yaxından tanış oldular. Onlar kursantların yataq yerlərinə, yataq dəstlərinə, geyimlərinə baxdılar. Sonra yeməkxanaya baş çəkdilər. Onların gəlişi nahar fasiləsinə təsadüf etdiyindən hazırlanan yeməklərə baxdılar. Kursantlarla görüşüb ətraflı söhbət etdilər. Ombudsman aparatının nümayəndələri sonra ərzaqların saxlanmasına baxmaq istədiklərini bildirərək anbarlara baş çəkdilər. Ərzağın hansı vəziyyətdə saxlanmasına diqqət yetirdilər.

Sonra nümayəndələr tibb məntəqəsinə, hamam kompleksinə, tədris otaqlarına baxış keçirdilər.

Hərbi liseylə qısa tanışlıqdan sonra Ombudsman aparatının nümayəndəsi Fəzail Həsənovdan təəssüratlarını bizimlə bölüşməyini xahiş etdik. O dedi:

- Hərbi liseydə gördüklərimizdən məmnun qaldıq. Təhsil ocağında kursantlar üçün yaradılmış şərait yüksək tələblərə cavab verir. İstər yaşayış, istər qida, istərsə də geyim və digər təminat sahələrində vəziyyət ürəkaçandır. Kursantlarla söhbətimizdən də hiss etdik ki, onların dedikləri səmimidir və ürəkdən gəlir. Bir daha əmin olduq ki, dövlət ordu quruculuğuna böyük diqqət və qayğı göstərir. Doğma ordumuzun gündən-günə güclənməsi və sürətli inkişafı ilə qürur duyuruq. İnanıram ki, orduda qazanılan uğurlar bizi sonda qələbələrə qovuşduracaq.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına**
**Hərbi Lisey**

# İtaliyanın analitik portalı Ermənistan-Azərbaycan münaqişəsindən yazır

İtaliyanın "Eurasian Business Dispatch" analitik portalı tədqiqatçı Domeniko Letisiyanın müəllifi olduğu "Ermənistan və Azərbaycan arasında sülh danışıqları: ümid və ya məyusluq" adlı məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində Azərbaycan və Ermənistan prezidentlərinin Cenevrədə keçirdikləri son görüş haqqında məlumat verilir, hər iki ölkənin xarici işlər nazirləri və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin görüşün nəticələri ilə bağlı bəyanatı diqqətə çatdırılır.

Müəllif Cenevrə görüşünün cari ilin iyulunda işğal olunmuş Füzuli rayonunun Alxanlı kəndində Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində iki azərbaycanlı mülki vətəndaşın öldürülməsi ilə nəticələnmiş son gərginlikdən sonra prezidentlər arasında keçirilmiş ilk görüş olduğunu xatırladır. Məqalədə görüşün nəticələrindən doğan müsbət əhvali-ruhiyyəni prezident Serj Sarkisyanın Ermənistanın İsveçrədəki səfirliyində erməni diasporunun nümayəndələri ilə keçirdiyi görüşdə Qarabağın Azərbaycan sərhədlərindən kənarda mövcudluğunun münaqişənin yeganə həll yolu olduğunu deməsi ilə korladığı vurğulanır. Müəllif bu bəyanatla bağlı Azərbaycan Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi Novruz Məmmədovun fikirlərinə yer verərək, S.Sarkisyanın yenə də sözünü tutmadığını və danışıqlar zamanı əldə olunmuş razılığı pozduğunu bildirir. Məqalədə Novruz Məmmədovun aşağıdakı fikrinə yer verilir: "Sarkisyan bilir və unutmamalıdır ki, Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və belə də qalacaq. Sarkisyanın planı nə onun vaxtında, nə də ondan sonra gələnlərin vaxtında reallaşmayacaq. Nə qədər himayədarlarına quyruq bulasa da, yuxusu çin olmayacaq".

Yazıda Ermənistanın Azərbaycana qarşı təcavüzü, Dağlıq Qarabağ münaqişəsinin başlanması, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizinin işğalı, Ermənistanın işğal olunmuş ərazilərdə həyata keçirdiyi etnik təmizləmə siyasəti və Xocalı soyqırımı barədə məlumat verilir. Bundan əlavə, Ermənistanın öz hərbi-siyasi təcavüz aktını əsaslandırmaq məqsədilə Azərbaycanın işğal olunmuş ərazilərində özü də daxil olmaqla heç bir dövlət tərəfindən tanınmayan qanunsuz oyuncaq rejim yaratdığı qeyd olunur.

Məqalədə, həmçinin BMT Təhlükəsizlik Şurasının Azərbaycanın ərazi bütövlüyü və suverenliyini təsdiq edən və Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən təcili, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnaməsinə Ermənistan tərəfindən məhəl qoyulmadığı diqqətə çatdırılır.

*Hərbi ənənələr, yeniliklər*

# Bu silahlar ölkəmizdə istehsal edilir





Ölkəmizdə Müdafiə Sənayesi Nazirliyi yarandığı gündən onun hərbi müəssisələri tərəfindən müxtəlif təyinatlı silah və texnikalar hazırlanır. Bütün məhsullarımız bir çox beynəlxalq sərgilərdə maraqla qarşılanır. Dünyanın inkişaf etmiş ölkələri ilə də hərbi əməkdaşlığımız davam edir.

Hərbi sənayemiz tərəfindən indiyə qədər istehsal olunan silahlar arasında minaəleyhinə "İldırım" və "Qasırğa" zirehli maşını, "Gürzə" patrul maşını, "Tufan" zirehli nəqliyyat vasitəsi, "Mübariz" snayper tüfəngi, "Vaşaq" snayper tüfəngi, tankələyhinə 40 mm çaplı RPQ-7V2 "Qaya" qumbaraatanı, "Zərbə" pilotsuz uçuş aparatı və digərlərini misal göstərmək olar. Ölkəmizdə istehsal olunan silahlar haqqında məlumat veririk.

## EM-14 avtomat silahı

EM-14 avtomat silahı 2016-cı ildə Azərbaycan Müdafiə Sənayesi Nazirliyi tərəfindən istehsal olunub. Abu-Dabidə keçirilən beynəlxalq sərgidə nümayiş etdirilib. Silahda NATO-nun 5,56x45 mm-lik güllələrindən istifadə olunur. Onun atəş tezliyi dəqiqədə 600 atışdır, sürəti saniyədə 860 metr təşkil edir. Atəş uzaqlığı 1000 metrə qədərdir.

## HP-7,62 pulemyotu

HP-7,62 hücum pulemyotu da istehsalımıza məxsusdur. 2012-ci ildə ictimaiyyətə təqdim edilib. 2013-cü ildə isə ilk dəfə İDEF beynəlxalq sərgisində nümayiş etdirilib. Pulemyotun qundağı möhkəm alüminium ərintisindən hazırlanıb. Silahın hər iki tərəfində müxtəlif cihazlandırma da quraşdırmaq olar. Pulemyotdan atəş müxtəlif tempdə açıla bilər və onda 7,62x54 mm-lik çaplı patronlardan istifadə edilir. Onun çəkisi 8,2 kiloqram, nişangah uzaqlığı 1000 metr, açıq qundaqla birlikdə uzunluğu 1080 mm, atəş tezliyi dəqiqədə 650-750 atış, döyüş atəş tezliyi isə dəqiqədə 200 atış təşkil edir. Silahdan ayaq üstə atəş açmaq məqsədilə xüsusi xəzinə də quraşdırılıb.

## RBG qumbaraatanı

Azərbaycan Müdafiə Sənayesi Nazirliyi Serbiya şirkəri ilə birlikdə 40x46 mm-lik çaplı RBG əl qumbaraatanı istehsal edib. Qumbaraatan ilk dəfə ADEX-2014 sərgisində göstərilib. Piyadalar üçün nəzərdə tutulmuş RBG qumbaraatanında NATO standartlı 40x46 mm çaplı güllələrdən istifadə edilir. Onun qundağı yığılandır. Silah kollimator nişangahla təchiz edilib. RBG-nin maksimum məsafəsi 1000 metrə qədərdir, atış məsafəsi 400 metrdir. Barabanı altı qumbaradan ibarətdir. Boş halda çəkisi 5,9 kiloqramdır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
“Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
kapitan
Məhəmməd ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 447
Nüsxə 4600